# Meşəli sakinlərinin ürək dağlayan xatirələri

"Kəndimizdə qırğını törədənlər də elə Vaqif Xaçaturyan və onun erməni silahlı quldur dəstəsinin üzvləri idi. Səhərə yaxın kəndi üç tərəfdən mühasirəyə almışdılar. Muzdlu əsgərlər də aralarında var idi. İnsanları can verən halda, dünyasını hələ dəyişməmiş yandırırdılar və işgəncələr verirdilər. Məktəbin 7-ci sinif şagirdi Vidadi Allahverdiyevi, kəndin yaşlı qadınlarından 75 yaşlı Sürayə Xudayarovanı qətlə yetirmişdilər. Qocaya, uşağa, heç kimə rəhm etmədən qəddarcasına əhalini qırdılar".

"Meşəlidə ermənilərin törətdiyi faciə nəticəsində yaxınlarımızı - anamızı, atamızı, qardaş-bacımızı, qohumlarımızı itirdik. Qətlə yetirilənlər arasında körpələr, məktəblilər də var idi".

"Deyirlər ki, o, İlyanın qardaşıdır. İlyanı tanıyırdım, avtobus sürürdü. Bu baş verən hadisələrdən əvvəl o avtobusdan biz də istifadə edirdik. Amma Vaqif Xaçaturyanı şəxsi olaraq tanımıram. Təxminən məndən bir az balaca olardı".

→ 10

# Meşəli sakinlərinin ürək dağlayan xatirələri

Meşəli kəndində erməni silahlılarının törətdiyi qətliam insanlığa sığmayan soyqırımı hadisəsidir. Kənd sakinləri ürək sızladan xatirələrini danışdıqca o günlərə qayıtmış olur, hadisələri yenidən yaşamış kimi hisslər keçirirlər.

AZƏRTAC xəbər verir ki, Vaqif Xaçaturyan kimi separatçı erməni dəstəsinin üzvlərinin təkcə Meşəlidə törətdiyi qətliam bəşər tarixinin ən qəddar, ən faciəli və amansız hadisələrindəndir. Sakinlər hadisədən 32 il ötməsinə baxmayaraq, o ağrılı günlərin xatirələri ilə yaşayırlar. Meşəli sakini Alış Alışov deyir ki, uzun illər kənddəki orta məktəbin direktoru vəzifəsində çalışıb. Həm də özünümüdafiə batalyonunda döyüşüb. Vaqif Xaçaturyanı və quldur yoldaşı İlyanı tanıyırdı.

"Kəndimizdə qırğını törədənlər də elə Vaqif Xaçaturyan və onun erməni silahlı quldur dəstəsinin üzvləri idi. Səhərə yaxın kəndi üç tərəfdən mühasirəyə almışdılar. Muzdlu əsgərlər də aralarında var idi. İnsanları can verən halda, dünyasını hələ dəyişməmiş yandırırdılar və işgəncələr verirdilər. Məktəbin 7-ci sinif şagirdi Vidadi Allahverdiyevi, kəndin yaşlı qadınlarından 75 yaşlı Sürayə Xudayarovanı qətlə yetirmişdilər. Qocaya, uşağa, heç kimə rəhm etmədən qəddarcasına əhalini qırdılar" - deyə Meşəli sakini Alış Alışov bildirib.

Meşəli sakinləri tələb edir ki, qırğını törədən Vaqif Xaçaturyanın silah



yoldaşları da tutularaq məhkəmə qarşısında cavab versinlər.

* * *

"Meşəlidə ermənilərin törətdiyi faciə nəticəsində yaxınlarımızı - anamızı, atamızı, qardaş-bacımızı, qohumlarımızı itirdik. Qətlə yetirilənlər arasında körpələr, məktəblilər də var idi".

Bu sözləri Meşəli faciəsinin canlı şahidlərindən olan kəndin sakini Dilbər Mehralıyeva deyib.

"Vaqif Xaçaturyan kənddəki qətliamı tək deyil, 500-dən çox üzvü olan qruplaşmış terror dəstəsinin birgə hücumu nəticəsində həyata keçirib. Qəddar quldur dəstələri yaşından asılı olmayaraq heç kimə rəhm etmirdi. Üzümü Avropa dövlətlərinə, dünya ictimaiyyətinə tutub deyirəm, axı bizim günahımız nə idi ki, başımıza bu cür faciə gətirildi. Həmin o Xaçaturyandan soruşsunlar, biz onlara nə etmişdik ki, kənd camaatını qətlə yetirdilər. Biz 32 ildir ki, həmin faciənin ağrılarını, acılarını bir an da olsun unuda bilmirik. İstəyimiz odur ki, Vaqif Xaçaturyan



və Meşəli faciəsində əli olan digər cinayətkarlar da tutulub məhkəmə qarşısında cavab versin, şəhidlərimizin qanı yerdə qalmasın", - deyə Meşəli kəndinin sakini Dilbər Mehralıyeva vurğulayıb.

* * *

"Meşəli hadisəsi XX əsrin ən faciəli hadisələrindən biri olub. Əsrin sonlarına yaxın ermənilərin hazırladıqları proqram üzrə Meşəli kəndinin işğalı bir az önə çəkildi. Kəndin işğalını Xocalı faciəsinə yolaçma kimi qiymətləndirirəm. Ona görə ki, bu hadisə soyqırımı idi. Buraya ancaq kütləvi qırğın üçün gəlmişdilər. Meşəli kəndini mühasirəyə alıb nə qadına, nə qocaya, nə uşağa - insanların heç birinə aman vermədilər. Meşəli kəndində baş vermiş hadisə soyqırımı hadisəsidir".

Bunu kənd sakini Kazım Rəhimov söyləyib.

Vaqif Xaçaturyanı şəxsən tanımadığını diqqətə çatdıran K.Rəhimov əlavə edib: "Deyirlər ki, o, İlyanın qardaşıdır. İlyanı tanıyırdım, avtobus sü-



rürdü. Bu baş verən hadisələrdən əvvəl o avtobusdan biz də istifadə edirdik. Amma Vaqif Xaçaturyanı şəxsi olaraq tanımıram. Təxminən məndən bir az balaca olardı".

Kazım Rəhimov vurğulayıb ki, ermənilərin törətdikləri soyqırımı 1991-ci ildə Meşəlidən başlayıb. Ondan sonra 1992-ci ilin fevralında Xocalı hadisəsi olub. Onlar hazırlanmış qrup şəklində olublar.

"Meşəli 60 ailəlik bir kənd idi. Buna baxmayaraq, elə mühasirəyə almışdılar ki, oradan heç kimə qaçmağa, çıxmağa imkan vermirdilər. Bu, bir növ Xocalı hadisəsinin başlanğıcı idi. Laçına tərəf çıxış olmasaydı, Meşəli camaatının bəlkə də yarısı qətlə yetirilərdi. Bir balaca yer vardı, çaydan keçirdi, o da yol deyildi, yolların hamısını kəsmişdilər", - deyə Meşəli kənd sakini deyib.

O vurğulayıb ki, tək Xaçaturyan deyil, bu hadisəni törədənlərin hamısı Beynəlxalq Ədalət Məhkəməsinə getsələr çox yaxşı olar. Heç olmasa bir təskinlikdir ki, bu qətliamı törədənlərin biri tapılıb.